# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 188** **Bakı şəhəri, 6 iyun 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Ümumtəhsil internat məktəblərinin nümunəvi əsasnaməsinin təsdiq edilməsi haqqında" 1994-cü il 5 may tarixli 176 nömrəli və "Notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimatın təsdiq edilməsi barədə" 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 5 may tarixli 176 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 1, maddə 48; 2000, № 8, maddə 648; 2015, № 8, maddə 963, № 12, maddə 1579; 2017, № 4, maddə 628; 2018, № 5, maddə 1147, № 9, maddə 1938, № 11, maddə 2458, № 12 (II kitab), maddə 2736; 2020, № 2, maddə 210, № 4, maddə 480, № 11, maddə 1417; 2021, № 9, maddə 1070; 2022, № 4, maddə 413) ilə təsdiq edilmiş "Ümumtəhsil internat məktəblərinin nümunəvi Əsasnaməsi"nin 30-cu hissəsinin on altıncı abzasında "pensiya kitabçası (pensiya alan uşaqlar üçün)" sözləri "əmək pensiyası və (və ya) sosial müavinət təyin edilməsi haqqında Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun müvafiq struktur bölməsinin arayışı (əmək pensiyası və (və ya) sosial müavinət alan uşaqlar üçün)" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 693; 2001, № 11, maddə 722; 2002, № 3, maddə 148, № 7, maddə 455, № 10, maddə 635; 2003, № 10, maddə 629; 2005, № 4, maddə 386, № 6, maddə 534, № 8, maddə 782, № 10, maddə 977, № 11, maddə 1061, № 12, maddələr 1228, 1231; 2006, № 3, maddə 297, № 8, maddə 731, № 9, maddə 830, № 10, maddə 902, № 11, maddə 994; 2008, № 2, maddə 108, № 4, maddə 316, № 8, maddə 787; 2009, № 2, maddə 148, № 10, maddələr 846, 849, № 12, maddə 1079; 2010, № 6, maddə 555; 2011, № 10, maddə 971; 2012, № 3, maddə 263, № 5, maddələr 489, 495, № 7, maddə 777, № 11, maddə 1206, № 12, maddə 1354; 2013, № 4, maddə 444, № 5, maddə 578; 2014, № 1, maddə 76, № 5, maddələr 552, 589, № 6, maddə 746, № 8, maddə 1019, № 12, maddə 1685; 2015, № 12, maddə 1580; 2016, № 3, maddə 611, № 4, maddələr 777, 814, № 6, maddə 1226, № 8, maddə 1449, № 11, maddə 1937; 2017, № 1, maddə 135, № 3, maddə 493, № 6, maddə 1245, № 7, maddə 1491, № 9, maddə 1721, № 10, maddə 1883, № 12 (II kitab), maddə 2545; 2018, № 2, maddə 347, № 3, maddə 628, № 4, maddə 789, № 5, maddə 1122, № 6, maddələr 1360, 1367, № 9, maddə 1929, № 10, maddə 2166; 2019, № 1, maddə 169, № 3, maddələr 513, 564, № 5, maddələr 938, 967, № 6, maddə 1172, № 7, maddələr 1325, 1338, № 10, maddə 1674; 2020, № 6, maddə 783, № 10, maddələr 1282, 1299, № 12 (V kitab), maddə 1580; 2021, № 3, maddə 302, № 12, maddə 1509; 2022, № 4, maddə 414; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 15 may tarixli 156 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"ın 103-cü hissəsinin üçüncü abzasında "səhhətlə əlaqədar əmək qabiliyyətinin olmaması pensiya vəsiqəsi və ya" sözləri "orqanizmin funksiyalarının pozulması ilə əlaqədar əmək qabiliyyətinin olmaması" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti .- 2023.- 9 iyun.- S.8.